# Heydər Əliyev və liderlik fenomeni

**Müstəqilliyimizin ilk illərində, xüsusilə 1991-ci ilin oktyabrından sonra ölkənin həyatında xaos və parçalanma kimi ağır imtahan dövrü başladı. 1993-cü ilin may-iyun aylarında Azərbaycan əsl fəlakətin astanasında idi. Gəncədə Surət Hüseynovun başçılığı ilə qaldırılan qiyam ölkədə vətəndaş müharibəsi təhlükəsi yaratdı. O zaman Əbülfəz Elçibəy hakimiyyətin sükanı arxasında olsa da, xalqın güvəndiyi şəxs Heydər Əliyev idi. Xalqın çağırışı ilə Heydər Əliyev Bakıya dəvət olundu. İnsanlar Bakının küçələrinə axışaraq ulu öndərin hakimiyyətə qayıdışını tələb etdilər. 1993-cü il iyunun 15-də Heydər Əliyev Azərbaycan Ali Sovetinin sədri seçildi. Bir neçə gün sonra, iyunun 24-də Ümummilli Lider Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirməyə başladı. Bu dönüş Azərbaycan üçün tarixi əhəmiyyət daşıyırdı. Çünki Heydər Əliyev xalqı yalnız vətəndaş müharibəsindən deyil, həm də müstəqilliyin itirilməsi təhlükəsindən xilas etdi.**

1993-cü il oktyabrın 3-də ümumxalq səsverməsi keçirildi və Heydər Əliyev Azərbaycan Respublikasının Prezidenti seçildi. O vaxtadək ölkədə xaos, siyasi böhran və iqtisadi tənəzzül hökm sürürdü. Amma Heydər Əliyevin qayıdışı ilə Azərbaycanın siyasi, iqtisadi, sosial və mədəni həyatında dönüş baş verdi, dövlətçiliyin əsasların möhkəmləndirildi, yeni neft strategiyası həyata keçirdi. 1994-cü il sentyabrın 20-də Azərbaycan tarixində yeni bir səhifə açıldı - "Əsrin müqaviləsi" imzalandı. Bu müqavilə ölkəmizin iqtisadi müstəqilliyinin təminatı, beynəlxalq arenadakı nüfuzunun göstəricisi idi. Həmin gün Bakıda dünyanın 11 ən iri neft şirkətinin iştirakı ilə "Azəri", "Çıraq" və "Günəşli" yataqlarının birgə işlənməsi və hasil olunan neftin pay şəklində bölüşdürülməsi barədə müqavilə imzalandı və Heydər Əliyevin neft strategiyası Azərbaycanın gələcək taleyini dəyişdi. Bu müqavilə Azərbaycanın iqtisadi müstəqilliyini təmin edərək ölkəyə milyardlarla dollar dəyərində sərmayənin cəlb olunmasına yol açdı. Azərbaycan neftini dünya bazarına çıxarmaq üçün Bakı-Tbilisi-Ceyhan neft kəməri layihəsinin əsası qoyuldu. Bu kəmər Azərbaycanın Avropanın enerji xəritəsində mühüm strateji oyunçuya çevrilməsini təmin etdi. Qərb ölkələrinin Azərbaycanın neft-qaz layihələrinə marağı artdı. Lakin Heydər Əliyevin məqsədi sadəcə iqtisadi yüksəliş deyildi. Ulu öndərin əsas hədəfi müstəqil, qüdrətli və dayanıqlı Azərbaycan dövləti qurmaq idi. "Əsrin müqaviləsi" ölkənin iqtisadi sabitliyinin təməli olmaqla yanaşı, geosiyasi güc rıçağına çevrildi. Bu müqavilə Azərbaycanın geostrateji mövqeyini möhkəmləndirdi, Cənubi Qafqaz regionundakı qüvvələr balansını dəyişdi. "Əsrin müqaviləsi"ndən öncə Heydər Əliyev daha bir tarixi uğura imza atdı - 1994-cü ilin mayında Ermənistanla atəşkəs müqaviləsinə nail oldu. O dövr üçün bu addım böyük müdriklik tələb edirdi. Düşmən ölkə Azərbaycanın ərazilərini işğal etmişdi. Heydər Əliyev cəbhədə müvəqqəti də olsa, sülhə nail olmaqla ordunun gücləndirilməsi, iqtisadi sabitliyin təmin edilməsi və dövlətçiliyin möhkəmləndirilməsi üçün vaxt qazandı. Ulu öndərin uzaqgörən siyasəti ilə Azərbaycan ordusunun peşəkarlıq səviyyəsi yüksəldi, ordu quruculuğuna xüsusi diqqət ayrıldı. Düşmənə qarşı əks-hücumların təşkil olunması, ordunun təchizatının yaxşılaşdırılması Heydər Əliyevin tarixi xidmətlərindən biri idi.

Heydər Əliyev Azərbaycanda sadəcə sabitlik yaratmadı, həm də demokratik institutların formalaşmasına nail oldu. 1995-ci ilin noyabrında keçirilən referendum nəticəsində ölkənin ilk milli Konstitusiyası qəbul edildi. Bu, Azərbaycan tarixində hüquqi dövlət quruculuğunun başlanğıcı idi. Konstitusiya xalqın iradəsini, bəşəri dəyərləri, demokratik prinsipləri özündə əks etdirirdi. 1995 və 2000-ci illərdə çoxpartiyalı əsasda demokratik parlament seçkilərinin keçirilməsi, Konstitusiya Məhkəməsinin fəaliyyətə başlaması, ölüm cəzasının ləğvi, bələdiyyə seçkiləri haqqında qanunun qəbulu demokratiya yolundakı əhəmiyyətli addımları idi. Ölüm cəzasının ləğvi Heydər Əliyevin humanizm dəyərlərinə, insan hüquqlarına olan sadiqliyinin bariz nümunəsi idi. Ulu öndər həyatın müqəddəsliyini dövlət siyasətinin mərkəzinə qoydu. Bu qərarla Azərbaycanı regionda ölüm cəzasını ləğv edən ilk dövlətlərdən birinə çevirdi. 1998-ci il oktyabrın 11-də Azərbaycan xalqı yenidən Heydər Əliyevi Prezident seçdi. Bu dəfə xalqın ona inamı daha güclü idi. Seçkilərdə səslərin 76,1 faizini toplayan Heydər Əliyev yenidən Azərbaycan Respublikasının Prezidenti oldu. Ulu Öndərin Prezidentliyinin ikinci dövründə Azərbaycanın beynəlxalq münasibətləri daha da gücləndi. Neft kəmərləri, qaz layihələri, beynəlxalq təşkilatlarla münasibətlərin genişlənməsi Heydər Əliyevin geosiyasi irsini formalaşdırdı. Bu dövrdə Azərbaycan daha güclü, daha dayanıqlı dövlət kimi tanındı. 2001-ci il noyabrın 9-10-da Bakıda daha bir tarixi hadisə baş verdi - Dünya Azərbaycanlılarının I Qurultayı keçirildi. Bu, Heydər Əliyevin uzun illər qurduğu diaspor siyasətinin təntənəsi idi. Dünyanın müxtəlif guşələrində yaşayan milyonlarla azərbaycanlını bir araya gətirən qurultay əslində xalqın birlik rəmzi idi. Qurultay təkcə Azərbaycan diasporunun təşkilatlanması deyil, həm də "Bütöv Azərbaycan" ideyasının təcəssümü idi. Dünya azərbaycanlılarının həmrəyliyinə nail olmaq Heydər Əliyevin tarixi missiyalarından biri idi. Diaspor təşkilatlarının fəaliyyəti daha da gücləndirildi, milli maraqların beynəlxalq səviyyədə müdafiəsi üçün vahid ideologiya formalaşdırıldı.

1993-2003-cü illər Heydər Əliyevin rəhbərliyi ilə formalaşan yeni Azərbaycan modeli iqtisadi, siyasi və hüquqi sistemi yenidən şəkilləndirdi. Müstəqil dövlətin bazası quruldu. Xalqın birliyi, idarəçilikdə şəffaflıq, ordu quruculuğu və enerji siyasəti müasir və suveren Azərbaycanın əsas sütunlarını təşkil etdi. Milli Qurtuluş Günü həm tarixi, həm strateji, həm də emosional-milli əhəmiyyət kəsb edən gündür. Bu, dövlətçiliyin qorunması, qurtuluş və gələcəyə körpüdür. Ümummilli lider Heydər Əliyevin siyasətinin davamı İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın beynəlxalq miqyasda güclənməsi və qlobal siyasi arenada layiqli yer tutması ilə özünü göstərir.

**Naqif HƏMZƏYEV,**
**Milli Məclisin deputatı.**